№ 246 (5568) ■ Qiyməti: 60 qəpik

BAKI XƏBƏR

27-05 FEVRAL - MART 2026-cı il

www.baki-xeber.com

"Bakı-xəbər" qəzeti ilə Respublika Xatirə Kitabı Redaksiyasının birgə layihəsi əsasında yazılmış "Dünya hələ nağıl idi" kitabının birinci hissəsini təqdim edirik.

# Dünya hələ nağıl idi

*(Sənədli povest)*



16 yaşlı yeniyetmə Gövhərcanın heç kimə heç nə demədən, yerini-yurdunu xəbər vermədən evdən getməsi ailədə bir gərginlik yaratmışdı. Hər kəs nigaran idi. Babası Mehralı kişi, nənəsi Minayə qarı, anası Hamaya xanım, qardaşı Şərif və bacısı Günel onun hara və neyçün getməsi haqqında düşünür, qəti bir nəticəyə gələ bilməyib cavabsız sualların ağırlığından sıxılırdılar. Hamaya xanım narahatlığını gizlədə bilmir, tez-tez kiçik qızı Güneldən: - Qızım, bacın sənə heç nə demədi? Axı sizin sözünüz-sirriniz bir idi. Ola bilməz ki, sənə heç nə deməsin, - deyə soruşurdu. Bir cavab ala bilməyib oğluna tərəf dönürdü:

- Oğlum, Şərif, yəni sən də heç nə bilmirsən? Axı bu, necə olur? Bacınız səssiz-səmirsiz evdən qaçıb gedir, siz isə bu haqda heç nə bilmirsiniz?

- O bizə heç nə deməyib, ana. Bilsək, sənə deməzik? Vallah, bilmirik.

Hamaya xanım anası Minayə nənədən kömək diləyirdi: - Sən dünya görmüş ağbirçəksən, ana. Axı bu qız hara gedə bilər? Niyə evdən qaçsın ki?

- Bu, ürək-könül məsələsinə oxşayır, qızım. Məncə, narahat olma. Sağ-salamatdır, bir müddətdən sonra özü qayıdacaq. Amma kiminlə, necə? Daha onu deyə bil-mərəm.

Hamaya ana yaşlı anasının məntiqi qarşısında sussa da, aylarla övladını axtarıb soraqladı. Lakin ondan bir xəbər ala bilmədi.

Nəhayət, Bakıda yaşadığı güman edilən Gövhərcan Minayə nənənin dediyi kimi, həqiqətən də bir müddətdən sonra Goranboy rayonunun Zeyvə kəndində yerləşən evlərinə döndü. Gözlənilməzlik isə ondan ibarət oldu ki, o, hamilə idi və bir neçə aydan sonra ana olacaqdı. Hamaya ana qızının sağ-salamat geri dönməsinə sevinsə də, onun evə tək qayıtması və uşağın atasından qətiyyən söz açmaması ürəyinə bir dərd oldu.

- Neyçün susursan, qızım? Uğursuzluq təkcə sənin başında görünməyib ki! Axı nə olub? Kimdir o?

- Xahiş edirəm, ana, bu haqda məndən heç nə soruşma, - Gövhərcan əlini üzünə tutub ağladı.

- Axı, qızım, bu elə bir məsələdir ki, gizlətmək olmaz.

- Mən bu haqda danışmaq istəmirəm, ana.

- Kənddə biabır olacağıq. Baban da, qardaşın da çox pis olublar. Belə olmaz axı.

- Kim nə deyir-desin. Əgər bir də bu söhbətə qayıtsanız özümü öldürəcəm, - dedi Gövhərcan.

Hamaya ana qızının dilindən eşitdiyi bu sözlərdən qorxdu:

- Elə demə, bala. Sizi necə çətinliklərlə böyütdüyümü unutmusan yoxsa? Şükür ki, sağsalamat döndün. Mən yetim saxlamağa öyrəncəliyəm, - gözünün yaşını yaylığının ucu ilə silib: - nəvəmə də özüm baxaram, - dedi.

Hamaya ana həyat yoldaşı Yaraşı xatırladı. Onun vaxtsız ölümü ailəni başsız qoymuşdu və ailəsi ilə Türkmənistanda yaşayan Hamaya ana 3 azyaşlı uşağını da götürüb ata evinə dönməyə məcbur olmuşdu. Milliyyətcə özbək olan Yaraş Türkmənistan vətəndaşı idi və vaxtaşırı Azərbaycana - Gəncə şəhərinə ticarətə gəlib-gedərdi. Gənc Hamaya isə kəndlərindən olan xeyli qız-gəlinlə birgə Gəncəni tikiş fabrikində işləməyə gələrdilər. Taleyin qəribə qisməti Yaraşla Hamayanı məhz bu ulu və qədim şəhərdə görüşdürmüşdü. Onlar bir-birini sevmiş və ailə qurmağı qərarlaşdırmışdılar. Tezliklə Yaraşın ata-anası Azərbaycana gəlmiş, Hamayanın barmağına nişan üzüyü taxmış, toy edib Türkmənistana aparmışdılar. Bir ildən sonra ilk övladları Gövhərcan dünyaya gəlmişdi. Daha sonra isə Şərif və Günel doğulmuşdu.

Yaraş ailəsini, uşaqlarını çox sevir, qayğı və diqqətini onlardan əsirgəmir, öz sevgisi ilə gənc xanımına qərib bir ölkədə, doğmalarından çox-çox uzaqlarda olmasını unutdururdu. Hamaya isə taleyindən çox razı idi. Ailəsinin, uşaq-larının xidmətində durur, onların varlığına şükürlər edirdi. Amma təəssüf ki, bu xoşbəxt və firavan günlərin ömrü az oldu. Ailənin sonbeşiyi körpə Günelin 3 yaşı olar-olmaz gözlənilmədən Yaraş ağır mədə xəstəliyinə tutuldu və çox çək-mədi ki, vəfat etdi. Hamaya gənc ərinin yasını verdikdən sonra azyaşlı övladlarını götürüb Azərbaycana - ata ocağına qayıtdı. Qara günlər də bundan sonra başladı. Gənc qadın kənddə günəmuzd işlərə gedir, evlərdə qulluqçuluq edir, məclislərdə qab-qacaq yuyur, yorğan-döşək sırıyır, uşaqlarının gündəlik xərcini qazanmağa çalışırdı.

Acılarla dolu həyatının gündən-günə çətinləşdiyi bir vaxtında Gövhərcanın başına gələnlər onu daha da sıxırdı. Amma olacağa çarə yox idi və olan olmuşdu.

Günlər sürətlə ötüb keçdi və 2000-ci il dekabr ayının 11-də Gövhərcanın bir oğul övladı dünyaya gəldi. Qarışıq duyğular yaşadı ailə. Bir yandan nur topu kimi sağlam, şi-rin bir balanın dünyaya gəlişi ilə sevinir, digər tərəfdən isə atasız bir uşağı böyütməyin çətinliyi onları qorxudurdu.

Hamaya ana körpənin adını Əmrah qoymağı təklif etdi. "Sevincək, şad, fərəhli" mənasını verən bu adla nəvəsinin şad-xürrəm ömür sürməsini istədi. Həm də o dövrlərdə türk sinemaları çox yayılmışdı və ailədə hər kəs türk filmlərinin qəhrəmanı Küçük Əmrahı çox sevirdi. Məhz bu maraq evdə hər kəsin körpəyə bu adın verilməsini razılıqla qarşılamasına səbəb oldu. Amma heç kəsin ağlına da gəlməzdi ki, Əmrahın öz taleyi də daima ağlar gözlü bir yetimi canlandıran bu film qəhrəmanının taleyinə bənzəyəcək və gələcəkdə onun ən çarəsiz, kimsəyə açıb-bükməkdən ehtiyat etdiyi ən böyük dərdi rəsmi sənədlərdə atasının adının məchul göstərilməsi olacaq. Hələliksə, körpə Əmrah olub-keçənlərdən xəbərsiz qapqara gözləri ilə ətrafı maraqla seyr etməkdə idi.

Elə ilk günlərdən ailədə hər kəs körpə Əmraha qarşı ürəyində bir sevgi bəsləməyə başladı. Qəribədir, bu sevgini hiss etməkdən çəkinən təkcə körpənin anası Gövhərcan idi. Gənc yaşda istəmədən də olsa, ana olmaq məcbu-riyyətində qalması, düzəninin pozulması, analıq vəzifəsini yerinə yetirməyə nə maddi, nə də mənəvi gücə malik olmaması hələ tam yetkinlik yaşına çatmamış bu qadını çıxılmaz vəziyyətə salmışdı. Bəlkə də körpəsinə bağlanacağından qorxduğu üçün idi ki, ona süd verməkdən, qayğısına qalmaqdan, öpüb-qoxulamaqdan çəkinirdi.

Körpə hələ iki aylıq olmamış Gövhərcan qəti qərarını verdi və o, övladını anasının himayəsinə verib evdən getdi. Bir müddətdən sonra onun Türkiyədə yaşadığı məlum oldu.

Amma bu məlumatın körpə Əmrahın həyat tərzinə heç bir aidiyyəti yox idi. O, olub-bitənlərdən xəbərsiz kasıb bir ailənin himayəsində - nənəsinin, nənəsinin ata-anası olan nənə-babasının, xala və dayısının yanında yaşamaqda idi.

Əmrahın xalası Günel deyir: "- Biz hamımız babamın evində yaşayırdıq. Bacım Gövhərcanın 16-17 yaşı olardı. O, \evdən qaçıb Bakıya getdi. Anam onu çox axtardı, lakin tapa bilmədi. Bir müddətdən sonra özü qayıtdı. Bətnində həmin uşağı gətirmişdi. Uşağın atası haqqında bizə heç nə demədi. Əmrah doğulandan sonra heç ana südü də vermədi. Biz körpəni inək südü ilə böyütdük. Əmrah 2 aylıq olarkən bacım evi tərk etdi və bir də onun 5 yaşı olanda gəldi".

Artıq Hamaya ana ağır xəstəliyə düçar olmuşdu. Eynən əri kimi o da mədə xərçəngi idi. O, yatağa düşmüş, sayılı günləri qalmışdı. Ürəyi övlad həsrətli xəstə qadın gecə-gündüz Gövhərcan deyib sayıqlayır, son nəfəsində bircə dəfə də olsa qızını görməyi arzulayırdı. Deyirlər xəstələrin duası keçərli olur. Həqiqətən də heç gözlənilmədən artıq 5 ildir ki, evdən getmiş və heç bir səsi-sorağı olmayan Göv-hərcan geri döndü. Övladına qovuşan Hamaya ana Gövhərcanın gəlişindən təxminən 10 gün sonra vəfat etdi.

Minayə nənə Gövhərcana Əmrahı göstərib: - Bu yaşa kimi biz böyütdük, indi də özün bax uşağına. Gedəndə özünlə apar, - dedi.

Gövhərcan isə sənədlərində problemlər olduğunu, Türki-yəyə qayıtmaq üçün onu həll etmək lazım gəldiyini, uşağa baxmağa vaxtı olmadığını bəhanə gətirdi. Amma yaşlı nənə razılaşmadı və Hamaya ananın yas mərasimin-dən sonra Gövhərcan balaca Əmrahı götürüb Gəncəyə gəldi.

Bir neçə gündən sonra o, Əmrahı evində kirayənişin qaldığı qadına tapşıraraq: - Mən Türkiyəyə çatan kimi sizə pul gön-də-rəcəm. Hər ay vaxtlı-vaxtında haqqınız çatacaq. Siz sadəcə uşağa yaxşı baxın, - dedi.

Qadın razılaşdı və Gövhərcanın qarayanız simalı, şirin gülüşlü, beş yaşlı oğluna təyin edilmiş məbləğ müqabilində baxacağına söz verdi.

Gövhərcanın gedişindən artıq 10 gündən çox vaxt keçmişdi. Lakin ondan hələ ki, bir xəbər yox idi. Əmraha baxıcılıq edən ev sahibi şübhəyə düşdü: - Axı, bu necə olur? Qadının məkana çatmağı ən uzağı 3 gün çəksin. Bir neçə gün də yolun yorğunluğuna, rahatlanıb dincəlməyinə sərf etsə, bu günə qədər gərək ya zəng etməli, ya da pul göndərməli idi. Ondan isə hələ də bir səs-soraq çıxmayıb, - dedi.

Sonra uşağı yanına çağırıb onu sorğu-sual etməyə başladı: - Sən harada yaşadığını bilirsənmi, oğlum? - soruşdu.

Əmrah şirin uşaq tələffüzü ilə: - Bilirəm, xala, - deyib məhzun baxışları ilə qapqara gözlərini baxıcısının üzünə dikdi.

Qadın sevincini gizlədə bilmədi: - Ay səni yüz yaşa, oğlum. Kəndinizin adını da bilirsən?

- Zeyvə, xala. Nənəm mənə həmişə deyirdi ki, biz Goranboy rayonunun Zeyvə kəndində yaşayırıq.

- Halal olsun sənə, Əmrah balam. Sən necə də ağıllısan. Sabah səhər səni evinizə aparacam. Evinizə getmək istəyirsən?

Balaca Əmrahın sevincdən gözləri parladı. Nə qədər yaxşı baxsa da, onun üçün yad olan bu qadının yanında yaşamaq çox sıxıcı idi. Körpəcə qəlbi evləri, nənə-babası, "Günel bacı" deyə müraciət etdiyi xalası, dayısı, küçədəki uşaqlar üçün çox darıxırdı.

Baxıcı qadın səhər tezdən Əmrahın əlindən tutub rayon avtobusuna əyləşdi və Zeyvə kəndinə üz tutdu. Evdəkilər Əmrahı tanımadıqları bir qadınla görüb çox təəccübləndilər.

*(Ardı var)*

**Fərruxə Umarova**